Samirə Abbaszadə



# TƏMİZ GÜNAH

SAMİRƏ ABBASZADƏ

# TƏMİZ GÜNAH

«Vektor» Beynəlxalq Nəşrlər Evi
Bakı/Azərbaycan-2017





*Redaktor:*
Prof. Dr. Elçin İsgəndərzadə

*Texniki redaktor:*
Şükufə Əhmədli

Samirə Abbaszadə "Təmiz günah"
«Vektor» Beynəlxalq Nəşrlər Evi.
Bakı, 2017. 88 səh.

**© «VEKTOR» BEYNƏLXALQ ELMLƏR AKADEMİYASI, 2017**







***Ayrılıq oyuna gətirdi bizi,***
***Həsrətin əlində oyuncaq etdi...***

## BƏXTİMİ

Yenə də başıma qaxınc etdilər
Məni bu dərdlərə salan bəxtimi.
Xoşbəxtlik hər kəsin öz əlindəsə,
Mən niyə yazmışam talan bəxtimi?..

Ömür gedərgidir, bizə qalammaz,
Heç kəs bilə-bilə odda qalanmaz.
Bəxtsizin də bəxti belə olammaz,
Mən hardan tapmışam viran bəxtimi?..

İçimdə içimi ağrıdan oldu,
Sevincim əzabdan, ağrıdan oldu.
Məni öz bəxtimə ağladan oldu,
Alın əllərimdən qalan bəxtimi!..





## BAĞIŞLARAM...

Deyirlər ki, peşimansan etdiklərinçün,
Bağışlamaq ucalıqdır, gəl, bağışlaram.
Bircə kərə hesab sormam çəkdiklərimçün,
Bağışlamaq ucalıqdır, gəl, bağışlaram.

Tükənib taqətim, gücüm qalmayıb,
Dərmanlar dərdimə çarə olmayıb.
Olub keçənləri yada salmayıb,
Bağışlamaq ucalıqdır, gəl, bağışlaram.

Elə bil ki, göydən əzab yağır üstümə,
Sən qayıtsan, son qoyarsan dərdə, sitəmə,
Qürurunu sındırmaram, sən üzr istəmə,
Bağışlamaq ucalıqdır, mən bağışlaram.

## MƏN ELƏ BİLİRDİM...

Mən elə bilirdim, unutdum səni,
İllərə güvənib çox yanılmışam.
Səni unutmağa çalışdıqca mən
Özüm də bilmədən səndə qalmışam.

Yenə qarşılaşdıq vaxtsız-vədəsiz,
Nə sən günahkarsan, nə mən günahkar.
Ünvanı itirib, vaxtı səhv salan
Gecikmiş sevginin öz günahı var.

Başqa talelərdə ləngiməsəydi,
Bu qədər çarəsiz qoymazdı bizi.
İllərlə yol gəldik bir-birimizə,
Günlərdə itirdik bir-birimizi.

Mən elə bilirdim, unutdum səni...





## MƏN DƏLİ OLACAM...

İlahi, sevirəm dəli olmağı,
Mən dəli olacam yenə bu axşam.
Dəlilik – özünü SƏNdən almağım,
Mən dəli olacam yenə bu axşam.

Qovub "olmaz"ları gecə boyunca,
Dəlilik eyləyib sevim doyunca,
Dünya gözlərimdə oyun, oyuncaq...
Mən dəli olacam yenə bu axşam.

Səpəcəm gecəyə dəli sevgini,
Dəlilik etməsən, sevgi sevgimi?...
Özümü sevəcəm dəlilər kimi,
Mən dəli olacam yenə bu axşam.

İlahi, sevirəm dəli olmağı,
Mən dəli olacam yenə bu axşam...

## QƏDİRBİLMƏZ

Elə qarışıb ki içimdə dərdlər,
Ürək də çəkdiyi nədir, heç bilməz.
Mən səni hamıdan uca tutsam da,
Qədrimi bilmədin sən – qədirbilməz.

Söylə, istədiyin nədir, ay zalım,
Niyə ürəyimi çəkirsən belə?...
Bir dünya vermişdin sevgi adında,
Dünyamı gözümdən tökürsən belə?...

Çağrılmamış qonaq kimisən, vallah,
Bir anda gəlmişdin, ömrümcə oldun.
Görən, neyləmişdim, günahım nəydi?
Sən mənim ən böyük işgəncəm oldun...





## SƏNƏ SON ŞEİRİM

Bu sənə yazdığım son şeirim olsun,
Səni dəfn edirəm sənli günlərlə.
Unutdum səni də, sənli məni də,
Yaşamaram daha xatirələrlə.

Sevgi göylərinə ucalmaq üçün
Qalxmadın məhəbbət pillələrindən.
Adına "əlçatmaz dünya" deyirdim,
Yıxıldın dünyamın zirvələrindən.

Mənim nifrətimə layiq deyilsən,
Qalmayıb qəlbimdə sənə qəzəb, kin.
Sən necə yaşarsan təmiz hissləri,
Görəsən, nə imiş sevgi dediyin...

Verdiyin sözlərə, etdiyin vədə,
İçdiyin andlara inanmıram mən.
Səndən sədaqəti ummaq – qəbahət,
Səni sənliyinçün qınamıram mən.

... Bu sənə yazdığım son şeirim olsun!





## SƏNSİZLƏMİŞƏM

Sənsizlik dərd kimi çöküb sinəmə,
Soyuq təsəllilər dadıma gəlmir.
Səninlə olmağı bacarmasam da,
Sənsiz yaşadığım yadıma gəlmir.

Dolmusan ruhumun dərinliyinə,
Bir az sevgi kimi, bir az ağrıtək.
Səndən ayrılmağın bircə yolu var,
Özüm özlüyümdən ayrılam gərək.

Burda yetim qalan uşaq kimiyəm,
Yaman darıxmışam, qəribsəmişəm.
Bircə yol adımı çağır, nə olar,
Səni istəyirəm, sənsizləmişəm.
Səni istəyirəm, sənsizləmişəm...

## TƏMİZ GÜNAH

Haqq olan duyğunun haqqını verib,
Gedib səcdəsinə duraq sevginin.
Bəlkə, şərəfinə sağlıqlar deyib,
Şəninə məclislər quraq sevginin?...

Süzüb qədəhlərə ağ şərab kimi,
İçək ruhumuza biz bu sevgini.
Çəkilək dünyadan öz qınımıza,
İtək gecələrdə sevgili kimi...

Uzadaq gecəni səhərə qədər,
Yoraq göy üzünü sevgimiz ilə.
Bu sevgi özünü ələ verəcək,
Bu sevgi bizi də salacaq dilə.

İlahi duyğular qınağa gəlməz,
Bu, bizim ilahi qınağımızdır.
Bataq bu sevgidə, bataq günaha,
Bu sevgi tərtəmiz günahımızdır.





## APARIN DÜNYANI

İçimdə ağrıdır, çiynimdə bir yük,
Götürün, aparın dünyanı məndən.
Mənim ağrılarım – dünyadan böyük,
Götürün, aparın dünyanı məndən.

O, gələnin deyil, gedənin deyil,
Nə onun, nə sənin, nə mənim deyil,
Gecikmiş sevgitək gərəyim deyil,
Götürün, aparın dünyanı məndən.

Verdiyi sevinci başıma qaxır,
Daşları yağıştək başıma yağır,
Dərdləri az qala başıma çıxır,
Götürün, aparın dünyanı məndən.

İçimdə ağrıdır, çiynimdə bir yük,
Götürün, aparın dünyanı məndən.
Mənim ağrılarım – dünyadan böyük,
Götürün, aparın dünyanı məndən.

## GEDİR

Mənim gözlərimdə qaraldı dünya,
Həyat da, deyəsən, dağılıb gedir.
Ya Rəbbim, daha nə dərdin varsa, ver,
Dərdlərin sinəmə yığılıb gedir.

Hayqırım, qoy ərşə calansın səsim,
Bu bəxtdən mən hara qaçım, tələsim?..
Bu, başqa zülmdür, bu, başqa tilsim,
Fəryadım içimdə boğulub gedir.

Özüm öz günümə yandım, ağladım,
Mənmi sevincimə qapı bağladım?..
Sabaha bir azca ümid saxladım,
O da yavaş-yavaş yox olub gedir.

Ya Rəbbim, daha nə dərdin varsa, ver...





## MƏN KİMƏM Kİ?

*Mən kiməm ki, nəçiyəm ki, nəyəm ki?*
*(M.Araz)*

Bacarsaydım, qızıldan taxt qurardım,
İlməsini xoşbəxtlikdən vurardım,
Bacarsaydım, taledən kam alardım,
"Mən kiməm ki, nəçiyəm ki, nəyəm ki?.."

Gücüm çatsa, ağlamazdım bəxtimə,
Mən yazığın taleyi nə, bəxti nə?..
Bəxtsiz bəxtim səbr edirsə bəxtinə,
"Mən kiməm ki, nəçiyəm ki, nəyəm ki?.."

Aciz doğulmadım, zəif deyildim,
Tapdalandım, sürükləndim, döyüldüm.
Bacarmadım, taleyimə əyildim...
"Mən kiməm ki, nəçiyəm ki, nəyəm ki?.."

## "SƏNİNDİR" DEYİN!

*İlaxır çərşənbədə adını pıçıldayıb,*
*qulaq falına çıxdım.*
*Eşitdiyim ilk söz "mənimdir" oldu.*

Nolar, bircə dəfə "sənindir" deyin,
Dünyanı verərəm onda mən sizə.
Qibtə edirdilər məhəbbətimə,
Yoxsa heç bilmədən gəlmişəm gözə?..

Mən sevdim...
Mən sevdim, o isə özgənin oldu,
Aldılar əlimdən səadətimi.
Bəlkə, onsuzluğum daha yaxşıdır,
Bəlkə, mən duymuram xoşbəxtliyimi...
Nolar, bircə dəfə "sənindir" deyin.

Nə qədər ittiham etsələr məni,
Eybi yox, dözəcəm ağırlığına.
Onun xəyalıyla sevgili olub,
Onun xəyalıyla nişanlanacam.





Onun xəyalıyla büsat qurdurub,
Onun xəyalıyla gəlin çıxacam.
Mən onu sevəcəm ömrüm boyunca,
Dözəcəm ömürlük ayrılığına.
Nolar, bircə dəfə "sənindir" deyin.

Nolar, bircə dəfə "sənindir" deyin,
Qoy ümid göyərsin baxışlarımda.
Yalançı ümid də gərəkdir mənə,
Yalançı ümid də ümiddir mənə.
...Sevincdən ağlayım, hönkürtü vurum,
Boğulum özümün göz yaşlarımda -
Nolar, bircə dəfə "sənindir" deyin.

## BİRDƏNƏM

Yumsam gözlərimi həyata birdən,
Bil ki, doymamışam səndən, birdənəm.
Sən mənim canımdan əziz tutduğum,
Baxma ki, küsürəm hərdən, birdənəm.

Min ağrı yaşasam, min əzab çəksəm,
Çarəm bircə sənsən, əlacım – tək sən.
Mən sənin yanında ən xoşbəxt kəsəm,
Uzağam qüssədən, qəmdən, birdənəm.

Nahaq demirəm ki, təksən, bircəsən,
Ruhuma yaxınsan, ürəyimcəsən.
Sən əsl mənliksən, əsl məncəsən,
Gen dura bilməzsən məndən, birdənəm.

Yumsam gözlərimi həyata birdən,
İnan, doymamışam səndən, birdənəm.
Sən adlı sevgimin dəlisiyəm mən,
Dəlilik edirəm hərdən, birdənəm.





## SEVGİ AĞRISI

İçimdə bir ağrı ağrıdır məni,
Ruhum boyu göyərəcək bu ağrı.
Axıb süzüləcək damarlarımda,
Varlığımı göynədəcək bu ağrı.

Bu ağrını sevə-sevə yaşayıb,
Qucaqlayıb bağrıma da basacam.
Nazını çəkdiyim sevgilim kimi,
Bu ağrını gözüm üstə tutacam.

Canımı yaxsa da, yandırsa da o,
Mənə bal dadacaq onun acısı.
Həsrətin gözünə dik baxmaq üçün
Mənim təsəllimdir sevgi ağrısı...

## HƏLƏ DƏ SEVİRƏM

Bu yerlərdən çox uzaqda biri var,
Uzaqsa da, könlümdə öz yeri var.
Ürəyimin ağrılı bir sirri var, -
Mən sevmişəm, mən hələ də sevirəm.

Tanrı onu mənə zülüm göndərib,
Dövranımın gərdişini döndərib.
Əcəlimtək göydən yerə endirib,
Mən sevmişəm, mən hələ də sevirəm.

Sevənlər ünvansız daş da atmazlar,
Dediyim hər sözün öz ünvanı var,
Əlim çatmasa da, bu şeir çatar,
Mən sevmişəm, mən hələ də sevirəm.





## DÜNYAMSAN MƏNİM

Sənin gözlərində özgə aləm var,
Bu aləm ruhumu candan aparar.
Məni bu dünyanın əlindən alan
Dünyamsan mənim...

Mən sənsiz olanda yoxam, heç kiməm,
Tək sənin yanında mənəm, özüməm,
Dünya da görünmür sənsiz gözümə,
Dünyamsan mənim...

Olmasın arada kədər, qüssə, qəm,
Ruhumu alışdır hər saat, hər dəm.
Eşqində yanmağı sevən deyiləm,
Dünyamsan mənim...

## SƏNSİZ QƏRİBSƏDİM

Doğma şəhərimdə, doğma evimdə
Yenə qəribsədim sənsiz bu axşam.
Bu axşam göy üzü üstümə gəlir,
Yerin də əlində girinc qalmışam.

Nə mənə sığıram, nə sənsizliyə,
İçimdə qəribə, kövrək duyğu var.
Darıxmaq rəngdədir dünya da bu gün,
Göz yaşı qədərdir bütün duyğular...

O qədər sakitdir, səssizdir bu gün,
Elə bil dünyanın yuxusu gəlir.
Elə yazıqdır ki, bu gün təbiət,
Havadan ağlamaq qoxusu gəlir.

Yenə qəribsədim sənsiz bu axşam...





## KÖMƏK ELƏ

Bundan sonra dəyişməz ki bu yazım,
Mənə kömək elə, unudum səni.
Səni unutmaqçün köməyin lazım,
Mənə kömək elə, unudum səni.

Ağır imtahanla sınandım yenə,
Sevdiyim sevgi də haramdır mənə.
Nə qədər yol gəlsəm, çatmaram sənə,
Mənə kömək elə, unudum səni.

Bu yol yol deyil ki, varam sonuna,
Bu yol gətirəmməz məni yanına.
Bir yanda sən varsan, bir yanda dünya...
Mənə kömək elə, unudum səni.

Bir axşam sakitcə qapını döysəm,
"Səni unutmağa gəlmişəm" desəm...
Necə çarəsizəm, görmürsənmi sən?
Mənə kömək elə, unudum səni.

Bundan sonra dəyişməz ki bu yazım,
Mənə kömək elə, unudum səni.
Səni unutmaqçün köməyin lazım,
Mənə kömək elə, unudum səni.





## LAL MƏHƏBBƏT

Hərdən zəng edirəm, cavab vermirəm,
Bu da bir məlhəmdir kor məhəbbətə.
Mənə "lal" deməyin xətrimə dəyməz,
Kaş ki, deməyəsən "lal" məhəbbətə.

Bu sirrimi kimə açım-ağardım,
Bu sevdadan xəbər tutan güləcək.
Nə sən biləcəksən, nə də özgəsi,
Bu məhəbbət ürəyimdə öləcək.

Nə bilim, bəlkə də, o ölməyəcək,
Sevgilər yaşayır yollar boyunca.
Adam var, bir yolu başa vurammır,
Sevgi var, yol gedir yolu yorunca.

Mənsə ağrılardan bezən, yorulan,
Bu sevda bəs niyə haqladı məni?..
Sevgi deyiləni unutmuşdum mən,
Bu sevda yolumdan saxladı məni.

Bu gizli sevdanın gizli nisgili,
Qəlbimə dağ basıb, ağladır məni.
Mənim ağrılarım azıymış kimi,
Bir də bu məhəbbət ağrıdır məni.

Hərdən zəng edirəm, cavab vermirəm,
Bu da bir məlhəmdir kor məhəbbətə.
Mənə "lal" deməyin xətrimə dəyməz,
Kaş ki, deməyəsən "lal" məhəbbətə...





## CƏSARƏTİM OLSA

Cəsarətim olsa, səni görüncə
Özümü itirib, çaşıb qalmazdım.
Cəsarətim olsa, gücüm çatardı,
Səni ürəyimə belə salmazdım.

Səndən gen durmağa qərar vermişəm,
Durub görüşünə gəlirəm ancaq.
Sənin həvəsinlə doğulmamışam,
Sənin həsrətindən ölürəm ancaq.

Sənə tutmasam da üzümü indi,
Mən bura tək səni görməyə gəldim.
Hardansa bir azca cəsarət tapıb,
Səni sevdiyimi deməyə gəldim.

## GECİKMİŞ SEVGİ

Gərək açmayaydın könlünü mənə,
Ya da düşməyəydim könlünə sənin.
Ya sən ləngiyəydin dünyaya bir az,
Ya mən tələsəydim ömrünə sənin.

Nə desəm – danışsam, azdır, bilirəm,
Yetməz ürəyini ovutmaq üçün.
Sən məni doyunca sevə bilmədin,
Doyunca vaxtın var unutmaq üçün.

Yığıb gözlərinə xəyallarımı,
Dəymə, yoxluğuma saxla bir az da.
Məni şeirlərdə sevdiyin kimi,
Məni misra-misra ağla bir az da.

Gecikmiş sevginin yükü çox ağır,
Bu yola baş qoymaq divanəlikdir.
Sənin könül evin xarabalıqsa,
Mənim duyğularım viranəlikdir.





Gərək açmayaydın könlünü mənə,
Ya da düşməyəydim könlünə sənin.
Ya sən ləngiyəydin dünyaya bir az,
Ya mən tələsəydim ömrünə sənin...

## SƏNİ SEVMƏK MƏNİM XOŞUMA GƏLİR

İcazə ver, sevim səni doyunca,
Səni sevmək mənim xoşuma gəlir.
Sevgim yetər bizə ömür boyunca,
Səni sevmək mənim xoşuma gəlir.

Çiçək dolu səbət olum qoluna,
Toz olmasın, sular səpim yoluna.
Canım fəda bu sevdanın uğruna,
Səni sevmək mənim xoşuma gəlir.

Eşq dərd isə, mən bu dərdə yoluxdum,
Düz yolumda səndələdim, karıxdım.
Yanımdasan, yenə sənçin darıxdım,
Səni sevmək mənim xoşuma gəlir.

Canlandırdın canı çıxmış ruhumu,
Söz tapmıram vəsf, eyləyim duyğumu.
Sevgi nə ki, ondan ötə duyğu bu,
Səni sevmək mənim xoşuma gəlir.





Bu atəşdə yanıb-yanıb kül oldum,
Yaradana, bir də qula qul oldum.
Mən həm sənə,
həm sevməyə vuruldum,
Səni sevmək mənim xoşuma gəlir.

İcazə ver, sevim səni doyunca...

## YA SEVMƏYİ ÖYRƏN...

Bu qədər qərarsız olmaz ki, adam,
Ya gəlməyi bacar, ya gəlməməyi.
Əlində qalmısan duyğularının,
Ya sevməyi öyrən, ya sevməməyi.

Mənə ədasıyla gələn birini,
Qarşımda çökdürüb qul eyləyərəm.
Sevgimdə yanmağı bacarmayanı
Həsrətimlə yaxıb kül eyləyərəm.

Elə gedərəm ki, səssiz-səmirsiz,
Qaçsan da ardımca, çata bilməzsən.
Məni gözlərindən uzaq tutarsan,
Məni ürəyindən ata bilməzsən.

Bu işin hesabı, kitabı olmur,
Ürəyin öz vaxtı, öz sevda dəmi...
Bir də baxarsan ki, gecdir bir azca,
Bir də görərsən ki, sevirsən məni...





## DÜNYA

Başımın çarəsin özüm taparam,
Mənim işlərimə qarışma, dünya.
Mərdini namərdə möhtac eyləyib,
Sonra kişilikdən danışma, dünya.

Elə dəyişib ki, gərdişin sənin,
Bilinmir haqq nədir, haqsızlıq nədir.
İnsana zərrəcə sevgi duymayan
Durub insanlığa sevgi öyrədir.

Vicdandan danışır, ardan dəm vurur
Məzlumun ahını alan adamlar.
Qəlbi namuslunu ittiham edir
Namusu dilində olan adamlar.

Başımın çarəsin özüm taparam,
Bir də işlərimə qarışma, dünya!

## DƏFN OLUNMUŞ İNAMIM

Həyat davam edir, ömür-gün keçir,
Mənimsə çəkdiyim bir ayrı qəmdir.
Mən ki inanmağı heç bacarmırdım,
Sənə inanmağım görən nədəndir?..

Mən sənə inandım ilahi güctək,
Özümü səninlə tapdım, tanıdım.
Dünyaya anamdan doğulmuşdumsa,
Həyata inamdan doğulan oldum.

Fərqinə varmadan inandım sənə,
Dünya gözlərimdə tamam dəyişdi.
Sən demə, dəyişən özüm olmuşam,
Dünya əvvəlkiydi, dəyişməmişdi...

O qədər güvəndim, inandım sənə,
Mən elə bildim ki, dünyada təksən.
Ağlımın ucundan belə keçmədi,
Qalan inamımı öldürəcəksən...





Həyat davam edir yenə səninçün,
Sən yenə mənədək olan adamsan.
Mənsə...həyatımı geridə qoydum.
Sən də...Həyatımda qalan adamsan.

Daha nə sən varsan mənimçün, nə də
Tək sənçün yaşayan o sevgi, inam...
Bir də taleyimə geri qayıtma,
Bir də inanmaram, bir də aldanam!..

## UCA ÖLÜM

Mən sənə toxunsam, yana bilərəm,
Mən yansam, külümə sən də yanarsan.
Məndən uzaqda da əcəlim olub,
Yenə də qəsdimə sən dayanarsan...

Səndən gələn ölümü də sevərəm,
Ucaldaram ölümlərin içində.
Ölümümü qısqananlar deyərlər:
“ Ölüm olmaz bu tərzdə, bu biçimdə...”

Təki səndən gəlsin ölüm, sevgilim,
Yollarına gözlərimi sərərəm.
Bu ölümü yaşamağa nə var ki -
Bu ölümü yaşatmaqçün ölərəm!
Təki səndən gəlsin ölüm, sevgilim!





***

Bu gecə bir ayrı yaşadım sənsiz,
Yaşadım şəklini basıb bağrıma.
Ağladım, yalvardım acizlər kimi,
Ya dön, ya da məni apar yanına...

Bircə yol “gəl” desən, yanındayam mən,
Kəsəmməz yolumu nə tufan, nə qar.
Sənin həsrətinə dözmək çətindir,
Sənin həsrətindən ölməyə nə var?..

Ruhumu, könlümü viran eyləyib,
Dünyamı başıma yıxıb həsrətin.
Bəlkə qayıtsan da, çatmayacaqsan,
Mənim axırıma çıxıb həsrətin...

Bu gecə bir ayrı yaşadım sənsiz,
Yaşadım şəklini basıb bağrıma.
Ağladım, yalvardım acizlər kimi,
Ya dön, ya da  məni apar yanına...

***

Taleyin əlində yarıyammadım,
Əlim öz başıma, gedirəm artıq.
Mən ömür yaşımı yaşayammadım,
Mən ölüm yaşıma gedirəm artıq...

Həsrətə boy verib bilmişəm indi,
Öz evimi yıxan özcə əlimdi.
Çıxdığın uğurda ölüm şirindir,
Yenə çıx qarşıma, gedirəm artıq...

Dünyanın dərd yükü özünə qalmaz.
Yaralar vurar ki, bitməz, sağalmaz...
Mənə məndən başqa ağlayan olmaz,
Çevril göz yaşıma, gedirəm artıq...





Bu tale məndə var, çətin yollaşa,
Elə bil çıxıbdır mənlə savaşa...
Qoyma həsrətinlə qalım baş-başa,
Dön məzar daşıma, gedirəm artıq...







***Vətənimin torpağıyam,***
***daşıyam...***

## İSTƏYİRƏM - I

İstəyirəm bir dağ olum,
Dayaq olum elimə mən.
İstəyirəm varlığımla
Fəxr eləsin doğma vətən.

Bu torpağın sinəsində
Alov olum, sönməz olum.
Pillə-pillə qalxım daim,
Pillə-pillə enməz olum.

Qoy ucalım zirvələrə
Mən anamın özü kimi.
Adım yayılsın dünyaya
Azərbaycan qızı kimi.

*1986*





## İSTƏYİRƏM - II

İstəyirəm qərənfiltək
Şəhidlərə bacı olum.
Ağlayım məzarlar üstə
Öz göz yaşımda boğulum.

Yox, ağlamaq – acizlikdir,
Bu qisası alım gərək!
Qanı qanla yumalıyam,
Düşmən bağrın dəlim gərək!

Yağının diz çökdüyünü
Gözlərimlə görməliyəm.
Bu qələbə xəbərini
Vətənə mən verməliyəm!

*1990*

## ANALAR VAR

Beşik üstə lay-lay çalmış,
Gecə-gündüz fikrə dalmış,
Baxışları yolda qalmış
Analar var, analar var.

Gecələri səksəkəylə,
Gündüzləri bir tikəylə,
Oğulların qar, küləklə
yola salmış
Analar var, analar var.

Həyatın hər üzün görmüş,
Acısını şirin bilmiş,
Övladını qurban vermiş
Analar var, analar var.





Qəm üstünə qəm qalamış,
Özü özünü sınamış,
Gəlinkən gəlin olmamış
Analar var, analar var.

Gecələri səksəkəylə,
Gündüzləri bir tikəylə,
Oğulların qar, küləklə
yola salmış
Analar var, analar var.

*1989*

**BAYATILAR**

Əzizim, ağı desin,
Analar ağı desin.
"Mənim əziz balamı
öldürüb yağı" – desin.

Aman fələk, dad fələk,
Əlindən fəryad, fələk.
Bir müsibət göstərdin,
Sinəm tutdu od, fələk.

Gülləri solana bax,
Yuvası talana bax.
Göyərməmiş arzusu
Yarımçıq qalana bax.





Əzizim, güllər ağlar,
Çiçəklər, güllər ağlar.
Dərdlilərin dərdinə
Şərikdir ellər, ağlar.

Şimşəklər çaxar, gedər,
Yağışlar yağar, gedər.
Hər il yanvar gələndə
Yandırar, yaxar, gedər.

*1990*

## AZƏRBAYCAN

Tarixinə bir nəzər sal,
Bir varaqla yaddaşını.
Əsrlərdən gələn səssən,
Heç kim bilməyir yaşını.

Sən Nəbisən, Koroğlusan,
Alovlardan doğulmusan.
Candan əziz can olmusan,
Ana yurdum Azərbaycan!

Səni namus, qeyrət bildi
Uğrunda ölən igidlər.
Mənim əhdim, and yerimdir
Sinəndə yatan şəhidlər.

Sən Nəbisən, Koroğlusan,
Alovlardan doğulmusan.
Candan əziz can olmusan,
Ana yurdum Azərbaycan!





Sabahına ümidlə bax,
Böyük gələcəyin vardır.
Addımladığın bu yollar
Aydın, işıqlı yollardır.

Sən Nəbisən, Koroğlusan,
Alovlardan doğulmusan.
Candan əziz can olmusan,
Ana yurdum Azərbaycan!

*1992*

## BAHAR

*Ümidin rəngi yaşıl olur.*
*(S.İsmayıl)*

Yaşıl örtür, yaşıllığa bürünür,
Öz ümid donunu geyir təbiət.
Gül-çiçək dil açır, danışır sular,
Elə bil sevinir, gülür təbiət.

Pis olan hər şeyi yağışlarıyla
Yuyur, təmizləyir göz yaşlarıyla.
Özünün şəlalə gülüşləriylə
Sükutun qulağın dəlir təbiət.

Sanki təzələnir insanın özü,
Sevinir söhbəti, sevinir sözü.
Ümidlə rəngləyir bütün yer üzün,
Niskgilin izini silir təbiət.





## HAYDI, QIZLAR!

*Məktəbli qızlar arasında keçirilən*
*eyniadlı layihənin 1 yaşına...*

Bir bahar günündə görüşə gəldiz,
Haydı, qızlar, yorulmadan irəli!
Bahar güllərindən daha gözəlsiz,
Haydı, qızlar, yorulmadan irəli!

Siz mərdlik simvolu, cürət rəmzisiz,
Mətanət, dəyanət, qeyrət rəmzisiz,
Paklığa bürünüb haqdan gəlmisiz,
Haydı, qızlar, yorulmadan irəli!

Müqəddəs amallar yolçusu olun,
Bu elin, obanın elçisi olun,
Qələbə qazanın, zəfərlər çalın,
Haydı, qızlar, yorulmadan irəli!

İrəli, əməllə! İrəli, sözlə!
Bu vətən fəxr etsin, öyünsün sizlə,
Ucalın, ucalsın hər birinizlə,
Haydı, qızlar, yorulmadan irəli!

*2000*







***Anaların xoşbəxtliyi***
***övladlarının qayğısız***
***gülüşləri qədərdir...***

## ÖVLADLARIMA XİTAB

Qızım! Oğlum! Yaradana çox şükür,
Sizi verib, məni başdan yaratdı.
Ağrımaqdan qəlbim, ruhum daş idi,
Rəhm eylədi, məni daşdan YARATDI.

Əzəldən taleyin gözü tutmadı,
Həyata "1:0" yenik başladım.
Bəxtimə atılan daşları yığıb,
Bir də bəxtsizliyi özüm daşladım.

Xoşbəxtlik qaçdıqca mən qovaladım,
Oldu, yorulduğum, bezdiyim oldu .
Bəzən ümidlərim öldü içimdə,
Əlimi hər şeydən üzdüyüm oldu.

Amma hayandasa bir işıq vardı,
Buna inanırdım, inanmalıydım!
Bir axşam mən rahat uyuyacaqdım,
Bir sabah mən xoşbəxt oyanmalıydım!





Sizinlə dəyişdi dünyanın rəngi,
Varlığınız – mənim səadətimdir.
Xoşbəxtliyin adı – Zəhra, Məhəmməd,
Sizi sevmək – mənim ibadətimdir!

Qızım, oğlum! Yaradana çox şükür,
Sizi verib, məni başdan yaratdı.

## QIZIM

Ay qızım.
Günəş qızım, Ay qızım.
Əl üzdüyüm bəxtimə
Tanrı verən pay – qızım.

***

Can qızım.
Qurban sənə can, qızım.
Əldən düşmüş ruhuma
Sən gətirdin can, qızım.

***

Gül qızım.
Çiçək qızım, gül qızım.
Taleyindən yarıyıb,
Ömür boyu gül, qızım.





***

Nur qızım.
İşıq qızım, nur qızım.
Həyatın yollarında
Əzəmətlə dur, qızım.

## GÖZƏL GÖZLÜM

Elə baxma, gözlərinə göz dəyər,
Gözəl gözlərinə qurban olduğum.
Saf baxışa bəd nəzərlər tez dəyər,
Gözəl gözlərinə qurban olduğum.

Sən mənim muradım, ilkim, birincim,
Kiçik təbəssümün – böyük sevincim.
Hər giləsi dünya boyda bir incim,
Gözəl gözlərinə qurban olduğum.

Tanrı özü qoysun göz üzərində,
Dünyantək təmizdir o gözlərin də.
Yaşamaq həvəsim var gözlərində,
Gözəl gözlərinə qurban olduğum.

Elə baxma, gözlərinə göz dəyər,
Gözəl gözlərinə qurban olduğum.





## ZƏHRA

Qızların gözəli Zəhra,
Böyüyəsən qayğısız, şən.
Böyüdükcə sən böyüsün
Həyat sevgin, həyat nəşən.

Sevinəsən ömrün boyu,
Kədər nədir, bilməyəsən.
Xoşbəxtlikdən ağlayasan,
Dərd əlindən gülməyəsən.

Ucalasan zirvələrə,
Doğman qədər, yadın qədər.
Hər əməlin örnək olsun,
Ucalasan adın qədər.

## ZƏHRA ÇİÇƏYİM

Mənim qızım gözəllərdən gözəldir,
Mənim qızım göyçəklərin göyçəyi.
Gül bağında öz gülüm var mənim də,
Adına deyirəm ZƏHRA ÇİÇƏYİ.

Elə gözəldir ki, gözəlliyiylə
Bu gül mənim taleyimin naxşıdır.
Elə vurulmuşam onun ətrinə,
Ətri məni öldürməsə, yaxşıdır...

Ruhuma xoş gəlir, dinclik gətirir,
Min aləmdir – rayihəsi, ləçəyi.
Dünyama gəlişin mübarək olsun,
Xoş gəlmisən, mənim ZƏHRA ÇİÇƏYİm.

*06.09.2015*





## OĞLUM!

Məhəmməd adını daşıyan oğlum,
Bu adın şərəfin daşıyan da ol!
Təkcə axirəti əbədi deyil,
Dünyanı əbədi yaşayan da ol!

Saleh əməllərin, xoş niyyətlərin
Səni zirvələrə aparsın, oğlum!
İti qılıncla yox, iti ağılla
Düşmənin bağrını qoparsın oğlum!

Kişilik vəsfinin haqqını verib,
Mərdliyi, ərliyi ruhuna geyin!
Dediyin hər sözü andın bil ki, sən,
Mən də utanmadan "oğlum var" deyim...

## ANA ADLI ALLAHIM VAR

Mənə can verib canından,
Mənə qan verib qanından,
Tanrı keçsin günahımdan,
Ana adlı Allahım var.

Görürəmsə, gözüm Odur,
Haqq danışan sözüm Odur,
Əqidə O, dözüm Odur,
Ana adlı Allahım var.

Kainatın bünövrəsi,
Müqəddəsliyin zirvəsi,
Qadınlığın ilahəsi
Ana adlı Allahım var.





Qarşısında diz çökürəm,
Ayaqlarını öpürəm,
Mən Ona səcdə edirəm,
Ana adlı Allahım var.

*1996*

## ANA

Sənin xislətində möcüzə yatır,
Bu adın təsviri sözə sığarmı?...
Sən yerdə görüncək göydə ay batır,
Səndən nur almasa, günəş doğarmı?...

Dağlar dağlığını Səndən öyrənib,
Zərif vücudunda dağ cüssəsi var.
Bəyaz saçlarını səma görməyib,
Görsəydi, dağlara yağardımı qar?..

Alova istini ürəyin verib,
Sənin ürəyinin oduna qurban.
Kaş bir yol o odlu qəlbinə girib,
Bütün dərdlərinə tutaydım divan...

Sular saflığını Səndən pay alıb,
Səndəki təmizlik sularda da var.
Yollara qəribə hədiyyən qalıb,
Axırda tənhalıq... Yollarda da var...





## ƏDALƏTİN TƏRƏNNÜMÜ

Səma... Dəniz...
Xoşbəxt körpə gülüşləri...
Ədalətin tərənnümü budur, məncə.
Elə budur insanlıqçün baqi olan.

Çağır mənə o rəssamı,
Qoy işləsin Yer üzünə bu tablonu.
Amma köhnə –
müharibə, ölüm və qan rəngləriylə
bu saflığı, təmizliyi kirləməsin!
Yeni başdan rənglər alsın:

Günəşin istisindən,
suyun təmizliyindən,
körpələrin səsindən...

Hanı, gəlsin həmin şair,
Cəmi beşcə kəliməylə yazsın şeir:
səma, dəniz, xoşbəxt körpə gülüşləri.
Bu şeirdən yeni nəğmə bəstələnsin.
O nəğməylə insanların içindəki
körpələri, insanlığı məhv eyləyən
duyğuları təzələnsin!
Qitələrə, ölkələrə yayılsın o.
Bütün bəşər eyni dildə xoşbəxt olsun,
Bütün bəşər eyni notla müjdələnsin.

Aydın səma – aydın sabah...
Sakit dəniz – sakit dünya...
Xoşbəxt körpə – xoşbəxt bəşər...
Bu xoşbəxtlik böyüdükcə, yayıldıqca





Yer üzünü xilas edər.
Bütün dünya sevgiləşər,
Bütün dünya gözəlləşər...







***Uşaq şeirləri...***

## BAHAR BAYRAMI

Ana Vətənimizə
Bahar bayramı gəlir.
Quşlar nəğmə oxuyur,
Çiçəklər də sevinir.

Bizim Odlar yurduna
Yaman yaraşır bahar.
Ürəklərdə hərarət,
Evlərdə də şənlik var.

Hamı böyük həvəslə
Bu bayramı gözləyir.
Nənəm qoğal bişirir,
Anam ev təmizləyir.

Şəkərbura, paxlava,
Al-əlvan yumurtalar...
Bütün bu nemətlərin
Bayramda öz yeri var.





Xoş deyib, xoş danışaq,
Bayram dostluq deməkdir.
Salamlayıb hər kəsi
Bayramlaşmaq gərəkdir:
Bayramınız mübarək!

## SEHRLİ SÖZLƏR

Səhər oyanınca mən
Yatağımı yığıram.
Saçlarımı darayıb,
Otağımdan çıxıram.

Unutmuram "Salam"ı,
"Sabahınız xeyir"i.
Çünki belə sözlərə
"Sehrli söz" deyilir.

"Xahiş edirəm", "buyur",
"Minnətdaram", "çox sağ ol",
"Əgər zəhmət deyilsə",
"Nuş olsun" və "sağlam ol".

Bunların hər birinin
Sehrli qüvvəsi var.
Söyləyəni sevərlər,
Eşidənə xoş olar.





İndi icazə verin,
Sizə bir söz söyləyim.
Dinlədiyiniz üçün
Mən təşəkkür eyləyim.

Mənə vaxt ayırdınız,
Minnətdaram, sağ olun!
Yeni şeirlərədək!
Hələlik! Xoşca qalın!

## MƏN BİRİNCİYƏM!

Səhər tezdən oyandım,
Geyinib, ağ boyandım.
Çantamı da götürüb,
Qapıdaca dayandım.

Çiçəklərim əlimdə,
Şeirlərim dilimdə.
Hamı təbrik eləyir
Məni ilk dərs günümdə.

Anam üçün inciyəm,
Atamın sevinciyəm.
Məktəbə tələsirəm,
Bu il mən birinciyəm!





## LALƏ

Mənim adım Lalədir,
Çiçək kimi qızam mən.
Evimizin sevinci,
Göylərdə ulduzam mən.

Qaşım-gözüm qapqara,
Yanaqlarım aldır, al.
Saçlarım ipək kimi,
Üzümdə də xalım var.

Nənəm deyir ki, onun
Var-dövləti, mülküyəm.
Atamın bir dənəsi,
Anamın da ilkiyəm.





## ƏLVİDA, BAĞÇA

İndi altı yaşım var,
Məktəbə gedəcəyəm.
Sevimli bağçamıza
Əlvida edəcəyəm.

Nə bağçanı, nə sizi,
Əsla, unutmaram mən.
Sizinlə birlikdəyəm
Axı körpəliyimdən.

Mən bütün dərslərimi
Həvəslə öyrənəcəm.
Yeni dostlar qazanıb,
Daha da güclənəcəm.





## ƏLİFBANI ÖYRƏNDİM

"A"-dan "Z"-yə öyrənib,
Tanıdım hərfləri.
İndi də heca-heca
Oxuyuram sözləri.

Hərf nədir, söz nədir,
Bilirsinizmi bəs siz?
Mənə qulaq assanız,
Çox şey öyrənərsiniz.

"Ana", "ata", "ailə",
Başlayırlar "A" ilə.

"Bakı", "bayraq" və "Bəşər",
"B" hərfində birləşər.

"Vicdan", "vətəndaş", "Vətən",
"V" hərfində olur tən.

"Qayda", "qanun", "qəhrəman",
"Q" hərfindən alır can.

"Dünya", "dostluq", "dəyanət",
"D"-yə edirlər xidmət.

"Sevinc", "sevgi", "səadət",
"S"-də tapıbdı vəhdət.

"ı" ilə söz başlamaz,
Böyük "ı" hərfi olmaz.

Düşünməyin unutdum,
"ğ"-nı yaddan çıxartdım.

Hərf nədir, səs nədir,
Onun da fərqindəyəm.
Səsi eşidirəmsə,
Hərfi də görməliyəm.





Hələ bunlar nədir ki,
Daha çox şey bilirəm.
Bildiyim bir şey də var:
Yenə öyrənməliyəm!

## MÜNDƏRİCAT

Bəxtimi........................................................5
Bağışlaram...................................................6
Mən elə bilirdim.........................................7
Mən dəli olacam..........................................8
Qədirbilməz..................................................9
Sənə son şeirim...........................................10
Sənsizləmişəm.............................................12
Təmiz günah................................................13
Aparın dünyanı............................................14
Gedir...........................................................15
Mən kiməm ki?............................................16
"Sənindir" deyin!..........................................17
Birdənəm.....................................................19
Sevgi ağrısı.................................................20
Hələ də sevirəm...........................................21
Dünyamsan mənim.......................................22
Sənsiz qəribsədim........................................23
Kömək elə...................................................24
Lal məhəbbət................................................26





Cəsarətim olsa ...........................................28
Gecikmiş sevgi ...........................................29
Səni sevmək mənim xoşuma gəlir..............31
Ya sevməyi öyrən.......................................33
Dünya ........................................................34
Dəfn olunmuş inamım.................................35
Uca ölüm....................................................37
Bu gecə bir ayrı yaşadım sənsiz .................38
Taleyin əlində yarıyammadım.....................39
İstəyirəm - I ...............................................43
İstəyirəm - II ..............................................44
Analar var ..................................................45
Bayatılar.....................................................47
Azərbaycan ................................................49
Bahar .........................................................51
Haydı, qızlar! .............................................52
Övladlarıma xitab.......................................55
Qızım..........................................................57
Gözəl gözlüm..............................................59
Zəhra .........................................................60
Zəhra çiçəyim .............................................61
Oğlum! .......................................................62

Ana adlı Allahım var....................................63
Ana ..............................................................65
Ədalətin tərənnümü.....................................66
Bahar bayramı .............................................71
Sehrli sözlər .................................................73
Mən birinciyəm!..........................................75
Lalə...............................................................76
Əlvida, bağça ................................................78
Əlifbanı öyrəndim .......................................80





**Samirə Abbaszadə**

**“TƏMİZ GÜNAH”**

Çapa imzalanmış: 15.05.2017
Kağız formatı: 70x90 1/32
Həcmi: 5,5 ç.v.; Sifariş: 675; Sayı: 500.





«VEKTOR» BEYNƏLXALQ NƏŞRLƏR EVİ
Ünvan: AZ1018. Bakı şəh, Zığ yolu, 20 q
tel: (+99470) 3007000; (+99412) 4471404
faks: (+99412) 4796003
e-mail: isgenderzadeh@rambler.ru
www.vektor.az